# Bakıda İranın milli bayramı qeyd olunub





**Fevralın 10-da İranın Azərbaycandakı səfirliyi ölkəsinin milli bayramı - İslam İnqilabının 47-ci ildönümü münasibətilə rəsmi qəbul təşkil edib.**

AZƏRTAC xəbər verir ki, əvvəlcə Azərbaycanın və İranın Dövlət himnləri səsləndirilib.

İslam Respublikasının ölkəmizdəki səfiri Müctəba Dəmirçilu bildirib ki, dost, qardaş və qonşu Azərbaycan Respublikası ilə münasibətlərin inkişafı İran İslam Respublikası üçün xüsusi əhəmiyyət daşıyır. Onun sözlərinə görə, iki ölkə arasındakı əlaqələr ortaq tarixi, mədəni, dini və dil yaxınlığına, eləcə də dərin qohumluq bağlarına əsaslanır və qarşılıqlı hörmət, mehriban qonşuluq və ortaq maraqlar prinsipləri üzərində qurulub. İran və Azərbaycan xalqları əsrlər boyu eyni coğrafi-mədəni məkanda formalaşaraq sıx və davamlı münasibətlər yaradıb.

Səfir bildirib ki, İran Azərbaycanın müstəqilliyini tanıyan ilk ölkələrdən biri olub və bu il iki ölkə arasında diplomatik münasibətlərin qurulmasının 34-cü ildönümü qeyd edilir. 1991-ci ilin dekabrında Azərbaycanın müstəqilliyinin tanınması, 1992-ci ilin martında isə Bakıda İran səfirliyinin fəaliyyətə başlaması ikitərəfli münasibətlərin möhkəm institusional əsaslar üzərində inkişafına və əməkdaşlığın genişlənməsinə mühüm töhfə verib.

Azərbaycanın Baş nazirinin müavini Şahin Mustafayev bildirib ki, Azərbaycan-İran münasibətləri mehriban qonşuluq, suverenliyə və ərazi bütövlüyünə qarşılıqlı hörmət, eləcə də qarşılıqlı faydalı əməkdaşlıq prinsipləri əsasında ardıcıl şəkildə inkişaf edir. Onun sözlərinə görə, ikitərəfli əlaqələrin möhkəmlənməsində hər iki ölkə prezidentlərinin nümayiş etdirdiyi siyasi iradə mühüm rol oynayır. Yüksəksəviyyəli qarşılıqlı səfərlər və müntəzəm dialoq isə münasibətlərin dinamik inkişafına və əməkdaşlıq gündəliyinin genişlənməsinə əhəmiyyətli töhfə verir.

Şahin Mustafayev qeyd edib ki, Azərbaycan və İran iqtisadiyyatın demək olar ki, bütün sahələrini əhatə edən geniş əməkdaşlıq əlaqələrinə malikdir. Nəqliyyat, enerji, ticarət, infrastruktur və kommunikasiya sahələrində birgə layihələr uğurla həyata keçirilir, "Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizi və Şərqi Zəngəzur-Naxçıvan istiqamətində reallaşdırılan layihələr isə ikitərəfli əməkdaşlığın strateji xarakterini nümayiş etdirir. Bu istiqamətdə Hökumətlərarası Dövlət Komissiyasının fəaliyyəti və qarşılıqlı səfərlər əməkdaşlığın daha da dərinləşməsinə xidmət edir.

Azərbaycan.- 2026.- 11 fevral (№ 26).- S.6.